***Fərhad Mete***

***Xocalı***

Orada hərşey faciə günün sonrasını xatırladır-
Şəhər intihar etmiş, sağ əli ilə Allaha doğru uzalı
sol əli ilə asmış özünü göyün yeddinci qatından
və itələmiş ayağının altından torpağı, qovuşmuş cənnətinə
cənnətdə hər şey donmuş haldadır deyirlər
o şəhərin insanları da bizlərə bənzəməz
qocaların gözləri və əlləri heyrətdən açıq qalmış
sanki qarıları yenidən gəlinlik libası geyinirmiş kimi
axtalanmış kişilər üçün qadınları əkin tarlaları,
döşləri kəsilmiş qadınlar üçünsə kişiləri süd qardaşları
insanlar ən çox təhlükə anında doğmalaşırlar
şəhərin körpələri nağıl filmdəki taxta həmyaşıdlarına bənzəyirlər
baxışları canlı, vücudları sərt...
və soruşurlar uşaq sadəlöhvlüyülə "biz cənnətin hansı qatındayıq?"
orada itlər də zəncirindən başıaşağı sallanır
göy üzünün quşları da boğulmuş gümüşü sularda
orada hər şey faciə gününün sonrasını xatırladır,
inanmırsınız, gedin baxın...

***Mete F. Bir şəhərin anatomiyası ; Xocalı // Ulduz. - 2009. - № 9. - S.1-2***